AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA
DÖVLƏT İDARƏÇİLİK AKADEMİYASI

*Əlyazması hüququnda*

**SƏFİYƏ ƏLİ QIZI MEHBALIYEVA**

# ERMƏNİSTAN-AZƏRBAYCAN, DAĞLIQ QARABAĞ MÜNAQİŞƏSİNİN NİZAMLANMASI PROSESİNİN TƏHLİLİ: MANEƏLƏR VƏ PROBLEMLƏR

**5901.01 – Beynəlxalq münasibətlər**

Siyasi elmlər üzrə fəlsəfə doktoru elmi
dərəcəsi almaq üçün təqdim olunmuş
dissertasiyanın

**A V T O R E F E R A T I**

**BAKI – 2017**

İş Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "Beynəlxalq münasibətlər və xarici siyasət" kafedrasında yerinə yetirilmişdir.

**Elmi rəhbər:** siyasi elmlər üzrə elmlər doktoru, professor
**E.İ.ƏHMƏDOV**

**Rəsmi opponentlər:** AMEA-nın müxbir üzvü, professor
**M.C.QASIMLI**

siyasi elmlər üzrə elmlər doktoru, professor
**H.B.MƏMMƏDOV**

**Aparıcı təşkilat:** Bakı Dövlət Universitetinin "Diplomatiya və müasir inteqrasiya prosesləri" kafedrası

**Müdafiə** "31" yanvar 2018-ci il saat 11.00-da Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası nəzdindəki FD 02.101 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

**Ünvan:** AZ1001, Bakı şəhəri, Lermontov küçəsi, 74.

Dissertasiya işi ilə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Elmi kitabxanasında tanış olmaq olar.

Avtoreferat "29" dekabr 2017-cı ildə göndərilmişdir.

**FD 02.101 Dissertasiya**
**Şurasının Elmi katibi,**
**fəlsəfə üzrə fəlsəfə doktoru, dosent** **S.İ.Məmmədova**

## İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Tədqiqat mövzusunun aktuallığı.** XX əsrin sonunda Sovetlər İttifaqında yaranmış vəziyyətdən istifadə edən ermənilər özlərinin xaricdəki himayədarlarının köməkliyi sayəsində Azərbaycanın əzəli torpaqları olan Dağlıq Qarabağa dair yenidən ərazi iddiaları irəli sürdülər. Azərbaycan tərkibində siyasi, iqtisadi, sosial və mədəni muxtariyyətə malik olan Dağlıq Qarabağda yaşayan erməni icması ilk əvvəl sosial-iqtisadi vəziyyətlərinin ağır olmasını bəhanə edərək Azərbaycan dövlətinə tabe olmaqdan imtina etdi və bunu öz müqəddəratını təyin etmək hüququ kimi əsaslandırmağa çalışdı. Şübhəsiz ki, ermənilərin bu ərazi iddiaları hələ xeyli əvvəl diqqətlə və hərtərəfli plan əsasında hazırlanmaqla yanaşı, XX əsrin 20-ci illərində olduğu kimi əsrin sonunda da, Ermənistanın təbliği, təhriki və təzyiqi ilə həyata keçirilməyə başlandı.

Ümummilli lider Heydər Əliyevin qeyd etdiyi kimi, "Azərbaycandan fərqli olaraq, Ermənistan hələ münaqişə başlanmazdan çox-çox əvvəl onun uğurla başa çatdırılması üçün böyük hazırlıq işləri aparmışdı. Dağlıq Qarabağ məsələsində "məzlum erməni xalqının haqlarının tapdalanması" haqqında fikirlər hər bir ermənininin beyninə yeridilərək onun milli şüurunun hakim komponentinə çevrilmiş, bu məsələdə dünya ictimaiyyətini aldatmaqla onun rəğbətini qazanmaq məqsədi ilə genişmiqyaslı təbliğat işi aparılmışdı. Artıq münaqişə başlayanda Ermənistan Respublikasının rəhbərliyi Dağlıq Qarabağın Azərbaycandan ayrılması zərurəti barədə həm daxildə, həm də xaricdə istisnasız olaraq bütün ermənilərin yekdil rəyinə, birliyinə arxalanırdı. Digər tərəfdən, Ermənistanda ordu yaradılması, Dağlıq Qarabağ zonasında döyüş əməliyyatları aparmağa qadir olan silahlı dəstələr hazırlanması istiqamətində işlər çoxdan aparılırdı[1]. Tarixən Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi tələbinin vaxtında ərazi bütövlüyünə və suverenliyinə qəsd kimi qiymətləndirilməməsi yaranmış vəziyyəti daha da ağırlaşdırdı. Bundan istifadə edən Ermənistan parlamenti 1989-cu il dekabrın 1-də Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi haqqında heç bir hüquqi əsası olmayan qərar qəbul etdi.

Eyni zamanda, monoetnik dövlət yaratmağa nail olan Ermənistan Respublikası ona himayədarlıq edən dövlətlərin köməyindən istifadə edərək

---

[1] Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, məktublar, müsahibələr. I - XXXXVI kitablar. Bakı: Azərnəşr, 31-ci kitab, s. 153.

Azərbaycan ərazisinə hərbi qüvvə göndərərək açıq təcavüzə başladı. Nəticədə, Azərbaycanın Dağlıq Qarabağ bölgəsi və onun hüdudlarından kənarda yerləşən Laçın, Kəlbəcər, Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı və Zəngilan bölgələri Ermənistan silahlı qüvvələri tərəfindən işğal edildi. İşğal olunmuş Azərbaycan ərazilərindən 1 milyondan çox əhali öz torpağında qaçqın vəziyyətinə düşdü. Yüzlərlə yaşayış məntəqələri dağıdıldı, talan edildi və yandırıldı. Hazırda Azərbaycan ərazisinin 20 faizi Ermənistan silahlı qüvvələrinin işğalı altındadır.

Dünyada beynəlxalq sülhün və təhlükəsizliyin əsas qarantı rolunu oynayan BMT-nin Təhlükəsizlik Şurasının 1993-cü ildə 822, 853, 874 və 884 saylı qətnamələrində işğalçı qüvvələrin zəbt etdikləri Azərbaycan ərazilərindən dərhal çıxması tələbinin irəli sürülməsinə baxmayaraq, Ermənistan bu günə qədər buna əhəmiyyət vermir və işğalçılıq siyasətini davam etdirir. Hazırda 1988-ci ildən başlayan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin indiyə qədər öz həllini tapa bilməməsinin əsas səbəblərindən biri məhz bu problemin BMT və ATƏT kimi təşkilatların apardığı ikili standartlar siyasətinin girovuna çevrilməsidir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2017-ci il oktyabrın 4-də Avropa İttifaqı Şurasının nümayəndə heyəti ilə görüşdə münaqişənin həll olunmamasının səbəblərindən birinin məhz təcavüzkara qarşı beynəlxalq səviyyədə təzyiqin olmamasını bildirərək demişdir: "Əgər Ermənistana qarşı sanksiyalar tətbiq olunsaydı, beynəlxalq hüquq normalarını və humanitar normaları kobud şəkildə pozan ölkəyə qarşı ciddi sanksiyalar tətbiq edilsəydi, bəlkə də münaqişə çoxdan həll edilmiş olardı. Beynəlxalq ictimaiyyətin Ermənistana münasibətdə bu cür mülayim siyasəti onlarda belə təsəvvür yaradır ki, onlar bizim torpaqlarımızda qanunsuz şəkildə qalmağa davam edə bilərlər və bu, səbəblərdən biridir"[2].

Bütün bunlara baxmayaraq Azərbaycan bütün vasitəçilik missiyalarından imtina etməyərək, problemin ATƏM prinsipləri çərçivəsində həllinə tərəfdar olduğunu bir daha nümayiş etdirdi. Münaqişənin dinc vasitələrlə nizama salınması üçün yaradılmış Minsk qrupu çərçivəsində aparılan danışıqlarda Ermənistanın qeyri-konstruktiv mövqe tutması ilə yanaşı, qrupun üzvü olan böyük dövlətlərin mövqeyində

---

[2]İlham Əliyevdən "İqtibaslar": Azərbaycan Prezidenti dövlət quruculuğunun əsas istiqamətləri haqqında kitabı. Elektron versiya //http://azleadersays.com; "Azərbaycan" qəz., 4 oktyabr 2017-ci il.

də yekdil fikrin olmaması, artıq 25 ilə yaxındır ki, sülh prosesinin ləngidilməsinə və Azərbaycan ərazilərinin işğal altında qalmasına gətirib çıxartdı.

Bu baxımdan, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması prosesini tədqiq edərkən qarşıya çıxan maneələr və problemlərin öyrənilməsi çox zəruridir, eləcə də bir sıra amillərlə izah olunur:

Əvvəla, XX əsrin sonunda Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Dağlıq Qarabağın sosial-iqtisadi "geriliyi" adı altında Ermənistanın ərazi iddialarının araşdırılması, SSRİ-nin mövcudluğu şəraitində, problemin həlli istiqamətində sovet rəhbərliyinin fəaliyyətinin tədqiq olunması, məhz hadisələrin başlanğıcında qarşıya çıxan maneə və problemlərin daha dərindən öyrənilməsi baxımından əhəmiyyətlidir;

İkincisi, Ermənistanın ərazi iddiası obyekti olan Dağlıq Qarabağın Azərbaycan SSR-in tərkibində muxtar vilayət statusu, eləcə də dövlətlərin ərazi bütövlüyü və öz müqəddəratını təyinetmə prinsipilərinin legitimliyi, eləcə də bu kontekstdə tətbiqinin araşdırılması mövzunun aktuallığını şərtləndirən amillərdən biridir;

Üçüncüsü, 1992-ci ildən yaradılmış ATƏT-in Minsk qrupunun fəaliyyətinin tədqiq olunması ikili standartlar siyasətinin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə təsiri, eləcə də münaqişənin nizama salınması yolunda maneə və problemlərin öyrənilməsi baxımından mühüm elmi əhəmiyyət kəsb edir;

Dördüncüsü, keçən 25 il ərzində Ermənistanın Azərbaycana qarşı təcavüzkar siyasətinin beynəlxalq-hüquqi aspektlərinin daha dərindən araşdırılması və müasir dövrdə daha çox beynəlxalq hüquq prizmasından dünyada sülhün və təhlükəsizliyin təmin edilməsi üçün məsuliyyət daşıyan BMT və ATƏT kimi beynəlxalq təşkilatlar, eləcə də böyük dövlətlər tərəfindən Ermənistanın beynəlxalq hüquqa zidd cinayətlərinin qarşısının alınmaması, xüsusilə, humanitar hüququn prinsiplərinə, müharibə qanunlarına zidd hərəkət etməsi, Azərbaycan ərazilərində törətdiyi vandallıq aktlarının və insanlığa qarşı törədilmiş cinayətlər silsiləsinə salınması və beynəlxalq hüquq institutları tərəfindən bu cinayətlərə soyqırım statusu alması kimi məsələlərin xüsusi elmi araşdırmaya ehtiyacı vardır ki, bu da mövzunun aktuallığını şərtləndirən amillərdən biri və əsasıdır.

Nəhayət, araşdırılan problem indiyədək istər Azərbaycanda, istərsə də xaricdə ayrıca, sistemli şəkildə tədqiqat obyekti olmamışdır. Doğrudur,

mövzunun bəzi məqamlarına dair müəyyən əsərlər yazılsa da, problemin kompleks şəkildə araşdırılması mühüm elmi-praktiki əhəmiyyət kəsb edir.

**Problemin işlənmə dərəcəsi.** Yuxarıda qeyd etdiyimiz kimi, bu problem indiyədək sistemli şəkildə, ayrıca tədqiqat obyekti olmasa da, ancaq Azərbaycan, Rusiya və Qərb alimləri öz əsərlərində araşdırdığımız problemin ayrı-ayrı məqamlarına geniş yer vermişlər. Ona görə də dissertasiyanın yazılması prosesində həmin əsərlərdən istifadə edilmiş və eləcə də bəzi mühüm məsələlərə aydınlıq gətirmək üçün onlara müraciət olunmuşdur.

Akademik R.Ə.Mehdiyevin elmi əsərlərində XX əsrin sonu - XXI əsrin əvvəllərində Azərbaycanda gedən ictimai-siyasi və sosial-iqtisadi proseslərdən irəli gələn əsas nəzəri müddəalar və nəticələr öz əksini tapmışdır. Müəllifin əsərlərində dünyada və ölkədə baş verən ictimai-siyasi proseslərlə, baş verən hadisələrlə, qlobal dəyişikliklərlə bağlı fikirləri, çıxardığı elmi nəticələr, verdiyi proqnozlar mühüm əhəmiyyət kəsb edir. Bütün bunlarla yanaşı, müəllifin böyük aktuallıq kəsb edən, eləcə də zəngin mənbələr əsasında yazılmış əsərlərində Qarabağın tarixi Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi kontekstində kompleks şəkildə araşdırılmışdır. Bununla yanaşı, müəllif əsərlərində Azərbaycan dövlətinin münaqişənin nizama salınması prosesində mövqeyinə diqqəti çəkmiş və ölkəmizin problemin beynəlxalq hüquq prinsipləri əsasında həll edilməsinə tərəfdar olduğunu bir daha nümayiş etdirdiyi qeyd olunmuşdur[3].

Azərbaycanın xarici siyasəti və müasir beynəlxalq münasibətlər sistemində rolu ilə bağlı çoxsaylı əsərləri olan alimlərdən Ə.M.Həsənovun monaqrafiyalarında da araşdırılan problemlə bağlı məsələlərə əsas yer verilmişdir[4]. Bununla yanaşı, müəllifin Azərbaycanın geosiyasəti, milli inkişaf və təhlükəsizlik siyasətinə həsr edilmiş digər elmi əsərlərində də beynəlxalq təhlükəsizlik sahəsində Azərbaycanın xarici siyasət strategiyası

---

[3] Mehdiyev R.Ə. Azərbaycanlılara qarşı soyqırım gerçəklikləri. (Azərbaycan, rus və ingilis dillərində). Bakı: 2010, 204 s.; Mehdiyev R.Ə. Gorus - 2010: absurd teatrı mövsümü. Bakı: “Şərq-Qərb”, 2010, 96 s.; Мехтиев Р.Э. Нагорный Карабах: история, прочитанная по источникам. Москва: 2014, 280 с.; Mehdiyev R.Ə. İkili standartların dünya nizamı və müasir Azərbaycan, Bakı: 2015, 224 s.

[4] Həsənov Ə.M. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Bakı: Azərbaycan, 2005, 752 s.; Həsənov Ə.M. Azərbaycanın geosiyasəti. Bakı, “Zərdabi LTD”, 2015, 1048 s.; Həsənov Ə.M. Azərbaycanın Respublikasının milli inkişaf və təhlükəsizlik siyasətinin əsasları. Bakı: “Zərdabi LTD”, 2016, 662 s.; Həsənov Ə.M. Azərbaycanın ABŞ və Avropa dövlətləri ilə münasibətləri (1991-1996-cı illər). Bakı: Elm, 2000, 368 s.; Həsənov Ə.M. Azərbaycan və ATƏT: Ermənistan-Azərbaycan münaqişəsi və Dağlıq Qarabağ problemi ümumavropa təhlükəsizliyi fonunda. Bakı: İşıq, 1997, 80 s.

tədqiq edilir. Xüsusilə, Azərbaycanın ATƏT ilə əməkdaşlığına həsr edilmiş əsərdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ümumavropa təhlükəsizliyi fonunda geniş təhlil edilir, ATƏT çərçivəsində keçirilən görüşlər zamanı dünyanın aparcı dövlətlərinin mövqeyinə də toxunaraq, münaqişənin həlli yolları ilə bağlı konkret təklif və tövsiyələrlə çıxış edir.

Müəllifin dərin təhlilə əsaslanan azərbaycanlılara qarşı etnik təmizləmə və soyqırımı siyasətinin mərhələlərinə dair əsərində son iki əsrdə azərbaycanlılara qarşı erməni millətçiləri tərəfindən məqsədyönlü şəkildə həyata keçirilən etnik təmizləmə, soyqırımı və təcavüzkarlıq siyasəti təhlil edilir və bu millətçi siyasətin əsas mahiyyəti açıqlanır. Bununla yanaşı, müəllifin, Xocalı soyqırımının səbəbləri, nəticələri və beynəlxalq aləmdə tanınmasına dair səkkiz dildə nəşr olunmuş digər əsərində, elmi mənbələrə əsasən, XX əsrin sonunda ermənilərin Xocalıda törətdikləri soyqırımı aktı bütün insanlığa və bəşəriyyətə qarşı yönəldilmiş ən ağır cinayətlərdən biri kimi qiymətləndirilir. Eyni zamanda, kitabda Xocalı soyqırımının dünyaya çatdırılması, ona siyasi-hüquqi qiymət verilməsi istiqamətində görülən işlər, eləcə də Xocalı faciəsinin beynəlxalq aləmdə soyqırımı aktı kimi tanınması məsələləri geniş tədqiq edilir[5].

N.İ.Məmmədovun əsərlərində dəyişən dünyada sülh və təhlükəsizlik problemləri araşdırılır. Eyni zamanda, müəllif, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin dinc vasitələrlə nizama salınması üçün yaradılmış ATƏT-in Minsk qrupu çərçivəsində aparılan danışıqlarda Ermənistanın qeyri-konstruktiv mövqe tutması ilə yanaşı, qrupun üzvü olan böyük dövlətlərin mövqeyində yekdil fikrin olmaması da sülh prosesinin nəticəsiz qalmasına səbəb olduğunu göstərir. Bununla yanaşı, müəllifin rəhbərliyi ilə nəşr edilmiş topluda Cənubi Qafqazda vəziyyət və Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə dair qəbul olunmuş sənədlər təhlil edilir, eləcə də münaqişənin nizama salınması istiqamətində keçirilən görüşlərin nəticələri və beynəlxalq təşkilatlar tərəfindən münaqişənin nizama salınmasına dair qəbul edilən sənədlərin yerinə yetirilməməsinin səbəbləri barədə fikirlər irəli sürülür[6].

---

[5] Həsənov Ə.M. Azərbaycanlılara qarşı etnik təmizləmə və soyqırımı siyasətinin mərhələləri. (Azərbaycan, türk, rus, ingilis, fransız, alman, ərəb və Çin dillərində). Bakı, “Zərdabi LTD”, 2017, 400 s.; Həsənov Ə.M. Xocalı soyqırımı: Səbəbləri, nəticələri və beynəlxalq aləmdə tanınması (Azərbaycan, türk, rus, ingilis, fransız, alman, ərəb və Çin dillərində). Bakı: “Zərdabi LTD”, 2017, 464 s.

[6] Məmmədov N.İ. Xarici siyasət: reallıqlar və gələcəyə baxış. Bakı: Qanun, 2013, 264 s.; Qlobal siyasət: təhdidlər, çağırışlar, ümidlər /N.İ.Məmmədovun rəhbərliyi və baş redaktorluğu ilə. Bakı: Qanun, 2013, 320 s.

M.C.Qasımlının Azərbaycan Respublikasının xarici siyasətinə dair iki cildlik monoqrafiyasında Azərbaycan dövlətinin xarici siyasət prinsipləri, məqsəd və vəzifələri, dünyanın aparıcı dövlətləri ilə münasibətləri, beynəlxalq təşkilatlarla əlaqələri öyrənilir. Bununla yanaşı. əsərdə, Azərbaycanın xarici siyasətinin əsas istiqamətlərindən biri kimi Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə dair beynəlxalq təşkilatların mövqeyi təhlil edilmiş, eləcə də bu istiqamətdə Azərbaycanın diplomatik fəaliyyəti öyrənilmişdir[7]. Müəllifin "Erməni məsələsi"ndən "erməni soyqırımı"na qədər olan dövrü (1724-1920-ci illər) əhatə edən digər əsərində ermənilərin məqsədyönlü şəkildə Azərbaycan torpaqlarında, xüsusilə Qarabağın dağlıq hissəsində yerləşdirilməsi məsələsinə geniş yer verilmişdir. Müəllifin 1920-1994-cü illəri əhatə edən və Ermənistanın sovetləşməsindən Azərbaycan ərazilərinin işğalınadək erməni iddialarına həsr edilmiş monoqrafiyasında Cənubi Qafqazın sovetləşməsindən sonra Qarabağın dağlıq hissəsində ermənilərə muxtariyyət verilməsi məsələləri geniş təhlil edilir, eləcədə XX əsrin 80-ci illərinin ikinci yarısında Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasəti və hərbi təcavüzün ağır nəticələri öyrənilir[8].

H.B.Məmmədovun əsərlərində müasir beynəlxalq münasibətlər sistemi və Azərbaycanın xarici siyasətinin istiqamətləri, prinsipləri, məqsəd, mahiyyət və vəzifələri araşdırılır[9]. Həmçinin, kitabda Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin dinc vasitələrlə aradan qaldırılması sahəsində BMT və dünya birliyinin göstərdiyi səylər təhlil edilir. Müəllifin digər əsərində Azərbaycanın ATƏT, NATO, Avropa Şurası və Avropa İttifaqı ilə münasibətlərinə geniş yer ayrılmış, adı çəkilən institutlarla əməkdaşlığın qurulması, inkişaf dinamikası, xüsusilə, bu qurumların Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə dair

---

[7] Qasımlı M.C. Azərbaycan Respublikasının xarici siyasəti (1991-2003) 2 hissədə; I hissə. Bakı, 2015, 648 s.; Azərbaycan Respublikasının xarici siyasəti (1991-2003) 2 hissədə; II hissə. Bakı: 2015, 664 s.; Qasımov M.C. Azərbaycan beynəlxalq münasibətlər sistemində (1991-1995-ci illər). Bakı: 1996, 140 s.; Qasımov M.C. Azərbaycanın xarici siyasəti (konsepsiya məsələləri). Bakı: Mütərcim, 1997, 124 s.

[8] Qasımlı M.C. "Erməni məsələsi"ndən "erməni soyqırımı"na: gerçək tarix axtarışında (1724-1920). Bakı, 2014, 464 s.; Qasımlı M.C. Ermənistanın sovetləşməsindən Azərbaycan ərazilərinin işğalınadək erməni iddiaları: tarix - olduğu kimi (1920-1994-cü illər). Bakı: 2016, 520 s.

[9] Məmmədov H.B. Azərbaycan Respublikasının müasir beynəlxalq münasibətlər sistemində yeri və rolu. Bakı: "Aypara-3", 2009, 328 s.; Məmmədov H.B. Dünya siyasəti və beynəlxalq münasibətlər. Bakı: "Bakı Universiteti", 2012, 372 s.

qəbul etdiyi sənədlər geniş tədqiq edilməklə yanaşı, beynəlxalq təşkilatların münaqişəyə dair mövqeyinə diqqət yetirilmişdir.

E.İ.Əhmədovun əsərləri də müasir dövrdə tədqiq etdiyimiz problemin daha dərindən öyrənilməsi üçün əhəmiyyətlidir. Müəllifin Ermənistanın Azərbaycana təcavüzü ilə bağlı kitabında XX əsrin 80-ci illərinin sonundan Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları və işğalçılıq siyasəti araşdırılır və baş verən hadisələr xronoloji ardıcıllıqla təhlil olunur. Müəllifin digər 3 cildlik əsərində Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınmasına dair BMT, ATƏT, Avropa Şurası, Avropa İttifaqı, NATO, İslam Əməkdaşlıq Təşkilatı tərəfindən qəbul edilmiş sənədlərin də ardıcıllıqla və sistemli şəkildə verilməsi münaqişənin beynəlxalq-hüquqi aspektlərinin öyrənilməsi baxımından əhəmiyyətlidir[10].

V.İbayevin əsərlərində Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquqi tənzimlənməsi prosesində "jus cogens" prinsiplərinin tələblərinə riayət edilməsinin zəruriliyi, həmin prinsiplərin hər birinin münaqişənin nizamlanmasına tələbi, onların pozulmasının doğurduğu hüquqi nəticələr araşdırılır[11].

İ.Məmmədov və T. Musayevin əsərində Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquqi aspektləri geniş təqdiq edilmişdir[12]. Əsərdə, BMT Nizamnaməsi və ATƏT-in Yekun Aktında ifadə olunmuş beynəlxalq hüququn əsas prinsiplərini Ermənistanın kobud şəkildə pozması ilə yanaşı, beynəlxalq təşkilatların da mövqeyinə diqqət yetirilmişdir.

---

[10] Əhmədov E.İ. Ermənistanın Azərbaycana təcavüzü: təhlili xronika (1987-2011). Bakı: "Letterpress", 2012, 912 s.; Əhmədov E.İ. Ermənistanın Azərbaycana təcavüzü və beynəlxalq təşkilatlar. Bakı: "Tuna", 1998, 138 s.; Əhmədov E.İ. Ermənistanın Azərbaycana təcavüzü: Sənədlər və materiallar. I kitab. Bakı: "Letterpress", 2015, 324 s.; Əhmədov E.İ. Ermənistanın Azərbaycana təcavüzü: Etnik təmizləmə, soyqırım, terror, işğal. II kitab. Bakı: "Letterpress", 2013, 408 s.; Əhmədov E.İ. Ermənistanın Azərbaycana təcavüzü: Beynəlxalq təşkilatların və böyük dövlətlərin siyasəti. III kitab. Bakı: "Letterpress", 2013, 368 s.; Əhmədov E.İ. Azərbaycanın xarici siyasəti: beynəlxalq təhlükəsizlik və əməkdaşlıq institutları ilə münasibətlər. Bakı: "Letterpress", 2013, 452 s.

[11] İbayev V.Ə. Ermənistan - Azərbaycan münaqişəsi beynəlxalq hüququn JUS COGENS prinsipləri prizmasında. Bakı: 1999, 128 s.; İbayev V.Ə. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi insan hüquqları kontekstində (tətbiq olunan hüquq və məsuliyyət məsələləri). Bakı: 2001, 242 s.

[12] Мамедов И.М., Мусаев Т.Ф. Армяно-азербайджанский конфликт: история, право и посредничество. Тула: Гриф и К, 2006, 192 с.

Azərbaycan alimlərindən Y.Mahmudov, K.Şükürov, S.Əsədov, T.Köçərli, İ.Əliyev, A.İsgəndərli, N.Mustafa, V.Arzumanlı və başqalarının əsərlərində Azərbaycanın çar Rusiyası tərəfindən işğal edilməsindən sonrakı dövr araşdırılır, Ermənistanın təcavüzkarlıq siyasəti, eləcə də Dağlıq Qarabağ məsələsi geniş təhlil edilir. XX əsrin əvvəllərində Azərbaycanın inzibati-ərazi bölgüsünün kobud şəkildə pozulması ilə Dağlıq Qarabağ Muxtar Vilayətinin (DQMV) yaradılması prosesi və onun nəticələri H.Məmmədova, N.Məmmədov, F.Əhmədova, İ.Niftəliyev və digər müəlliflərin əsərlərində araşdırılmışdır[13].

Azərbaycanda Z.Səmədzadə, E.Nəsirov, A.Paşayev, N. Vəlişov, R.Sevdimalıyev, Z.Sultanov, K.İmranlı, A.Şərifov və eləcə də başqa müəlliflərin əsərlərində də araşdırdığımız problemin müəyyən məqamlarına dair, xüsusilə, erməni terror təşkilatları, lobbisi və KİV-nin rolunun öyrənilməsi baxımından dəyərli məlumatlar verilmişdir[14]. Bütün bunlardan əlavə, dissertasiyanın yazılması prosesində Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması məsələləri, eləcə də problemin digər məqamlarına dair tədqiq edilmiş müxtəlif dissertasiya işlərinə də diqqət

---

[13] Mahmudov Y, Şükürov K. Azərbaycan: beynəlxalq münasibətlər və diplomatiya tarixi. 1639-1828: Dörd cilddə. Bakı, 2009. Cild I, 512 s.; Mahmudov Y., Şükürov K. Qarabağ. Real tarix, faktlar, sənədlər. Bakı: 2005, 380 s.; Асадов С. Философия реваншизма или армянская кровожадность. Баку: 2001, 216 с.; Асадов С., Мамедов И. Терроризм, причина и следствие. Баку: 2001, 248 с.; Köçərli T. Qarabağ: yalan və həqiqət. Bakı: 1998, 244 s.; Əliyev İ. Dağlıq Qarabağ: Tarix, faktlar, hadisələr. Bakı: “Elm”, 1989, 120 s.; İsgəndərli A. Azərbaycan həqiqətləri: 1917-1920, Bakı: 2012, 228 s.; Arzumanlı V., Mustafa N. Tarixin qara səhifələri. Deportasiya. Soyqırım. Qaçqınlıq. Bakı: 1998, 280 s.; Məmmədova H. Azərbaycan Respublikasının xarici siyasətində Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi. Bakı: 2009, 360 s.; Məmmədova H. Xocalı: Şəhidlər, Şahidlər. Bakı: 2003, 197 s.; Məmmədov N. Dağlıq Qarabağ gerçəklikləri: soyqırımı, terror, deportasiya, işğal: XX yüzillik. Bakı: Təhsil, 2009, 272 s.; Əhmədova F.F. Dağlıq Qarabağın statusu məsələsi: tarix və müasirlik. -“Qarabağ dünən, bu gün və sabah” elmi-əməli konfransın materialları. Bakı, 2007, s.103-112.; Нифталиев И. Азербайджанская ССР в экспансионистских планах армян (20-е годы ХХ века). Баку: 2009, 254 с.

[14] Səmədzadə Z.Ə. Dağlıq Qarabağ: naməlum həqiqətlər. Bakı: 1995, 83 s.; Nəsirov E. Amerika Birləşmiş Ştatlarının antiterror doktrinası və onun tətbiqi mexanizmləri. Bakı, 2010, 392 s.; Paşayev A. Açılmamış səhifələrin izi ilə. Bakı: 2001, 536 s.; Vəlişov N. (Tapdıqoğlu). Ermənistanın Azərbaycana təcavüzünün nəticələri. Bakı: 2015, 864 s.; Севдималиев Р.М. Международный терроризм - глобальная проблема современности. Баку: Элм, 2004, 312 с.; Sultanov Z. Qarabağ gündəliyi. Bakı: “Yazıçı” 1991, 119 s.; Sultanov Z. Qarabağın qara günləri. Bakı: “Yazıçı”, 1992, 152 s.; Imranly K. Armenia-Azerbaijan conflict: origins and consequences. - “World of Diplomacy” Journal, №18-19, 2008, p.7-11.; Шарифов А. Прорыв информационной блокады. Баку: “Язычы“, 1992, 200 с.

yetirilmişdir. Bu baxımdan B.Muradova, A.Güləliyeva, S.Hacıyev (Şahtaxtı), N.Süleymanova, İ.Məcidli və başqalarının tədqiqat işləri müasir beynəlxalq münasibətlər sistemində, eləcə də münaqişənin nizama salınması prosesində ölkəmizin rolunun öyrənilməsi baxımından əhəmiyyətlidir[15].

Azərbaycandan xaricdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi istər Rusiya, istərsə də Qərb ölkələrinin tədqiqatçıları tərəfindən də müxtəlif səviyyələrdə və mövqelərdən tədqiq edilmişdir. Bu baxımdan, rus tədqiqatçılarından N.N.Şavrov, S.N.Qlinka, İ.Çavçavadze, V.L.Veliçko və A.S.Qriboyedovun əsərlərində çar Rusiyasının müstəmləkəçilik siyasətinin tərkib hissəsi olan ermənilərin Cənubi Qafqaza, o cümlədən Azərbaycan torpaqlarına köçürülməsi barədə əsaslı faktik materiallar problemin tədqiqi zamanı bir daha araşdırılmışdır[16].

Ancaq müasir dövrdə Rusiyada bu problemə dair nəşr edilmiş əsərlərin böyük əksəriyyəti ziddiyyətli, çox vaxt isə ermənipərəst mövqedən təhlil edilmişdir. Bununla yanaşı, Rusiyada nəşr edilmiş bəzi əsərlərdə müəlliflər, Cənubi Qafqaz regionunda baş verən hadisələri və siyasi prosesləri təhlil edərkən məsələlərə qeyri-obyektiv yanaşmış, hətta əsərdə qərəzli subyektiv fikirlər də yer almışdır[17].

---

[15] Muradova B.Ə. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınmasında ATƏT-in rolu: Siyasi elmlər üzrə fəlsəfə dok. dis. avtoref. Bakı: 2009, 26 s.; Güləliyeva A.A. Azərbaycan Respublikasının Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatında iştirakı: Siyasi elmlər üzrə fəlsəfə dok. dis. avtoref. Bakı: 2007, 26 s.; Hacıyev S.(Şaxtaxtı) Erməni təcavüzünün ifşasında Azərbaycan Respublikası diplomatiyasının rolu: Siyasi elmlər üzrə fəlsəfə dok. dis. avtoref. Bakı: 2012, 26 s.; Süleymanova N.M. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin mahiyyətinin təhrif edilməsində ermənipərəst xarici informasiya vasitələrinin rolu: Siyasi elmlər üzrə fəlsəfə dok. dis. avtoref. Bakı: 2016, 26 s.; Məcidli İ. Ermənistan Respublikasının terrorizm siyasəti və ondan Azərbaycan Respublikasına qarşı istifadə olunması: Siyasi elmlər üzrə fəlsəfə dok. dis. avtoref. Bakı: 2012, 26 s.

[16] Шавров Н.Н.Новая угроза русскому делу в Закавказье: Предстоящая распродажа в Мугани инорадцам. Баку: "Элм", 1990, 156 с.; Грибоедов А. Записка о переселении армян из Персии в наши области //История Азербайджана по документам и публикациям. Баку: 1990, с. 56-59.; Величко В. Кавказ. Русское дело и межплеменные вопросы (извлечения) //История Азербайджана по документам и публикациям. Баку, 1990, с. 62-74.; Глинка С. Описание переселения армян азербайджанских в пределы России. Баку: 1990, 144 с.; Чавчавадзе И. Армянские учёные и вопиющие камни /Пер. с груз. Н.И.Алексеев-Месхиев. Баку: 1990, 124 с.

[17] Спорные границы на Кавказе. /под. ред. Бруно Коппиттерса/. Москва: 1996, 226 с.; Гаджиев К. Кавказский узел в геополитических приоритетах России. Москва: 2010, 532 с.

Bütün bunlardan fəqli olaraq, ermənilərin Dağlıq Qarabağa dair ərazi iddiaları və təcavüzü ilə bağlı real həqiqətlər Y.Pompeyevin Sankt-Peterburqda və Bakıda nəşr edilən əsərində öz əksini tapmışdır[18]. Əsərdə hadisələr başlayandan Rusiya və Qərb dövlətlərinin himayəsi ilə ermənilər tərəfindən Qarabağın dağlıq hissəsində azərbaycanlılara qarşı törədilən qanlı faciələrin açıqlanması ciddi maraq doğurur və öz obyektivliyi ilə seçilir.

Bununla yanaşı, Rusiyanın, Qafqazın, Şərqi Avropanın orta əsrlər dövrünün tarixi coğrafiyası üzrə mütəxəssis Oleq Kuznesovun əsərlərində XX əsrdə transmilli erməni terrorizminin tarixi, eləcə də Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquqi tənzimlənməsi məsələri araşdırılır[19]. Rus tədqiqatçısı S.Çerniyavskinin əsərlərində SSRİ-nin süqutundan sonra müstəqilliyinə qovuşmuş Azərbaycan Respublikasının tamam yeni çalarlar qəbul etmiş müasir beynəlxalq münasibətlər sistemində oynadığı rolu göstərməklə yanaşı, beynəlxalq təşkilatlarla qarşılıqlı əlaqələri tədqiq edilir[20].

Araşdırdığımız problem Qərb ölkələrinin alimləri tərəfindən də araşdırılmışdır. Bu baxımdan, alman müəllif H.Kryugerin rus dilinə tərcümə edilmiş və Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquqi aspektlərinə həsr edilmiş əsərində BMT Təhlükəsizlik Şurasının münaqişəyə dair qəbul etdiyi sənədlər geniş təhlil edilmişdir[21]. Bundan əlavə, "Human Rights Watch" təşkilatı tərəfindən Nyu-Yorkda nəşr edilən kitabda, eləcə də Tomas de Vallın əsərində Dağlıq Qarabağ və onun ətrafında baş verən hadisələr öz əksini tapsa da, ancaq bir sıra məsələlərdə reallıqdan uzaq, subyektiv mülahizələr yer almış, xüsusilə, Ermənistanın Azərbaycana təcavüzü məsələsi Dağlıq Qarabağın erməni icmasının öz müqəddəratını təyin etmək cəhdi kimi qələmə verilmişdir[22].

---

[18] Помпеев Ю. А.Карабахский дневник. Москва, "Канон", 2010, 416 с.: ил.; Помпеев Ю.А. Кровавый омут Карабаха. Баку: "Азербайджан", 1992, 208 с.

[19] Кузнецов О. История транснационального армянского терроризма в XX столетии (историко-криминолгическое исследование). Баку: 2015, 412 с.; Кузнецов О. Правда о "мифах" Карабахского конфликта. Москва: 2013, 216 с.

[20] Чернявский С.И. Новый путь Азербайджана. Москва, Азер-Медиа: Книга и Бизнес, 2002, 352 с.; Чернявский С.И. Азербайджан: Выбор курса. Москва: Азер-Медиа, Книга и Бизнес, 2003, 336 с.

[21] Крюгер Х. Нагорно-Карабахский конфликт. Правовой анализ Перевод с английского издания. Баку: 2012, 228 с.

[22] Azerbaijan: Seven years of conflict in Nagorno-Karabakh. In: Human Rights Watch /Helsinki. New York: 1994, 114 p.; Томас де Ваал. Черный сад: Армения и Азербайджан между миром и войной /пер. с англ. О.Алякринского. Москва: 2005, 413 с.

Tədqiq etdiyimiz problemlə bağlı bir sıra alim və mütəxəssislərin, xüsusilə E.Fayql, S.Uimz, F.Star, E.Kornel, T.Qoltz, J.Rau və başqalarının əsərləri də işin yazılması prosesində gərəkli olmuş, müəyyən məsələlərə aydınlıq gətirmək üçün onlara müraciət olunmuşdur[23].

Bütün bunlarla yanaşı, tədqiq etdiyimiz problemlə əlaqədar Türkiyə tədqiqatçıları tərəfindən də bir sıra əsərlər yazılmışdır[24]. Bu cəhətdən türk müəlliflərdən D.Yıldırım, C.Özöndər, C.Taşkıran, N.Onk, M.Budak, N.Sarıahmetoğlu və başqalarının əsərlərində də tədqiq etdiyimiz problemin bəzi məqamlarına toxunulmuş, Türkiyənin Qarabağ münaqişəsinə dair siyasətinə müəyyən aydınlıq gətirilmişdir.

**Tədqiqatın obyekti və predmeti.** Dissertasiyanın obyektini Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin öyrənilməsi, predmetini isə münaqişənin nizamlanması prosesində maneələr və problemlərin elmi siyasi cəhətdən araşdırılması təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri** mövzunun aktuallığı və əhəmiyyəti nəzərə alınmaqla müəyyənləşdirilmişdir.Tədqiqat işinin əsas məqsədi cari arxiv sənədləri və mövcud ədəbiyyat əsasında XX əsrin 80-ci illərin sonunda ermənilərin Dağlıq Qarabağa dair ərazi iddiaları başlayandan indiyə kimi artıq beynəlxalq problemə çevrilmiş Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması prosesində

---

[23] Feigl E. Armenian mythomania. Salzburg, 2007: 169 p.; Weems Samuel A. Armenia: Secrets of a "Christian" Terrorıst State St. John Press, w.y.- 75 p.; Goltz T. Azerbaijan Diary. A Rogue Reporters Adventures is an Oil-Rich, War-Torn, Post-Soviet Republic. M.E. Sharpe, Ins., Armonk, New York: 1998, 406 p.; Swante E. Cornell. Small Nations and Great Powers: A Study of Ethnopolitical Conflict in the Caucasus. Routledge. 2001, 480 p.; Swante E. Cornell. The Nagorno-Karabakh Conflict. Report no.46, Department of East European Studies, Uppsala University, 1999, 162 p.; Svante E. Cornel. Conflict Theory and the Nagorno Karabakh Conflict: Guidelines for a Political Solution? Published by Triton. Stockholm 1997, 97 p.; Svante E. Cornel. Undeclared War: The Nagorno-Karabakh Conflict Reconsidered. – "Journal of South Asian and Middle Eastern Studies". Vol. XX, № 4, Summer 1997, p.1-24.; Star Federick S. Resolving Karabakh: Strategic Options for the U.S. Government, Silk Road Paper, Washington, June 2004; Rau J. The Nagorno Karabakh conflict between Armenia and Azerbaijan. A brief Historical Outline. Berlin: Verlag Dr.Köster, 2008, 96 p.

[24]Yıldırım D., Özönder J. Karabağ dosyası (II Baskı) Ankara: Türk Kültürünü Araştırma Enstitüsü, 1991, 127 s.; Taşkıran J. Gecmişten günümüze Karabağ meselesi. Ankara: Genelkurmay Basım evi, 1995, 195 s.; Budak M. Azerbayjan-Ermenistan ilişkilerinde Dağlık Karabağ meselesi ve Türkiyenin politikası. İstanbul: İstanbul Universitesi Edebiyyat Fakültesi, "Kafkas araştırmaları". 1996, s.107-139.; Onk N. Azerbaycan Karabağ tarihi. İstanbul: 1997, 235 s.; Sarıahmetoğlu N. Karabağ. İstanbul: 2011, 336 s.

maneə və problemlərin sistemli şəkildə siyasi təhlilinin aparılmasından ibarətdir.

Bu məqsədə nail olmaq üçün tədqiqat işində aşağıdakı vəzifələr qarşıya qoyulmuş və yerinə yetirilmişdir:

- XX əsrin sonunda Ermənistanın Dağlıq Qarabağa dair ərazi iddialarını daha dərindən öyrənmək üçün həmin dövrdə Azərbaycanın ayrılmaz tərkib hissəsi olan bu tarixi bölgəsinin sosial-iqtisadi, siyasi-hüquqi vəziyyətinin təhlil edilməsi;
- Dağlıq Qarabağın Azərbaycan SSR-in tərkibində muxtar vilayət statusunun öyrənilməsi, dövlətlərin ərazi bütövlüyü və öz müqəddəratını təyinetmə prinsiplərinin beynəlxalq-hüquqi sənədlərə əsasən tədqiq edilməsi;
- beynəlxalq təşkilatlar tərəfindən qəbul edilən sənədlərin, xüsusilə münaqişənin nizama salınması üçün yaradılmış ATƏT-in Minsk qrupunun fəaliyyətinin geniş təhlil olunması;
- Ermənistanın Azərbaycana qarşı təcavüzkar siyasətinin beynəlxalq-hüquqi sənədlərə əsasən tədqiq edilməsi;
- ikili standartlar siyasətinin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə təsirinin öyrənilməsi;
- problemin həlli üçün zəruri və həyata keçirilməsi mümkün olan cəhətlərlə yanaşı, ziddiyyətli cəhətlərə, maneə və problemlərə, həmçinin buraxılan nöqsanlara da xüsusi diqqət yetirilməsi, konkret elmi-nəzəri nəticələrin çıxarılması.

**Tədqiqatın mənbəşünaslıq bazası.** Dissertasiya işinin yazılmasında istifadə edilmiş sənəd və materialları bir neçə qrupa bölmək olar: a) beynəlxalq hüquqi sənədlər; b) böyük dövlətlər və beynəlxalq təşkilatlar tərəfindən qəbul edilən sənədlər (qərarlar, qətnamələr, bəyanatlar və s.); c) həmin dövlətlərin rəsmi şəxslərinin dövrü mətbuatda çap edilən məruzə, çıxış, müsahibələri və s.

Tədqiqat işinin yazılmasında ilk növbədə Azərbaycan Respublikasının Konstitusiyasına, BMT-nin Nizamnaməsinə, ATƏT-in Yekun Aktına, Yeni Avropa üçün Paris Xartiyasına[25] və digər çoxsaylı beynəlxalq hüquqi sənədlərə (Təcavüz anlayışının tərifi Deklarasiyası,

---

[25] Azərbaycan Respublikasının Konstitusiyası. Bakı, 2004, 48 s.; СБСЕ. Заключительный Акт Совещания по безопасности и сотрудничеству в Европе. 30 июля - 1 августа 1975 г. Москва, Международные отношения, 1987, 96 с.; Charter of the United Nations and Statute of the International Court of Justice. United Nations. New York, 1999, 87 p.; Парижская хартия для новой Европы. Париж, 19-21 ноября 1990 года.

Soyqırım Konvensiyası, o cümlədən, adət normaları və president təşkil edəcək digər kazuslar) istinad edilmişdir[26].

Tədqiqat işinin mühüm mənbəşünaslıq bazasını dövlət başçılarının, xarici işlər nazirlərinin qarşılıqlı səfərləri zamanı verdikləri bəyanatlar, məruzə və çıxışlar təşkil edir. Bu cəhətdən dissertasiyanın yazılmasında ümummilli lider Heydər Əliyevin, həmçinin Azərbaycan Prezidenti İlham Əliyevin nitq, məruzə və çıxışlarına dair çoxcildli nəşrlər, rəsmi materiallar xüsusi əhəmiyyət kəsb edir[27]. Bununla yanaşı, araşdırılan problemlə bağlı Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin cari arxivində saxlanılan sənədlərdən də ilkin mənbə kimi geniş istifadə olunmuşdur[28].

Bütün bunlarla yanaşı, dissertasiyanın yazılması prosesində Azərbaycanda və xaricdə nəşr olunan ("Azərbaycan", "Xalq qəzeti", "Respublika", "Правда", "Известия", "The Washington Post", "The Washington Times", "The Sunday Times", "The Wall Street Journal", "Financial Times", "The Christian Science Monitor", "La Mond" və b.) dövrü mətbuat materiallarından da geniş istifadə edilmişdir.

---

[26] Green L.C. The Contemporary Law of an Armed Conflict. Manchester University Press, 1993, chaps. 2, 18.; Meron T. War Crimes Law Comes of Age: Essays.Clarendon Press, 1998, chap. XIV.; Jelisic case (Prosecutor v. Goran Jelisic), 14 December 1999, Case No. IT-95-10, para.60.; Kayishema and Ruzindana case (Prosecutor v. Kayishema and Obed Ruzindana), 21 May 1999, Case No. ICTR-95-1-T, para. 176.; Rome Statute, supra note 65, article 5(1) (d).; Hebel H. Von and Robinson D. Crimes within the Jurisdiction of the Court. The International Criminal Court: The Making of the Rome Statute – Issues, Negotiations, Results, Kluwer, 1999, pp. 80-85.; Официальные отчеты Генеральной Ассамблеи. XXIX сессия. Приложение к резолюции 3314 (XXIX) Генеральной Ассамблеи, документ A/9890.; UN General Assembly Resolution A/RES/3/260. "Prevention and Punishment of the Crime of Genocide". 9 December 1948 - http://www.un-documents.net/a3r260.htm.

[27] Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, məktublar, müsahibələr. I - XXXXVI kitablar /Elektron külliyyat/. Bakı, 1997-2015-ci illər.
Əliyev İ.H. İnkişaf - məqsədimizdir: çıxışlar, nitqlər, bəyanatlar, məktublar, məruzələr, müraciətlər, fərmanlar /buraxılışa məsul: R.Ə.Mehdiyev/. I-XXXXX kitablar. Bakı, 2008-2017-ci illər.

[28] Ecological situation in the Republic of Azerbaijan (Mountainous Karabakh, Shusha, Lachin, Gubatly, Zangilan, Kalbajar, Agdam, Fizuli, Jabrayil). PACE. Doc.9148. 2001, 27 June; Destruction of the historical cemeteries and creation of new permanent "cemeteries" of catastrophe by Armenians in the occupied territories of the Republic of Azerbaijan. PACE. Doc.9516.2002, 8 July.; Environmental catastrophe as a result of the pollution of the Azerbaijani water sources with chemical and biological substances by Armenia. PACE doc. 11062, 2006, 4 October. http://www.assembly.coe.int; Exploitation of the fields of minerals in the Azerbaijani territories under occupation by Armenia and their devastation. PACE doc. 10899, 2006.

**Tədqiqatın nəzəri-metodoloji əsasını** beynəlxalq münasibətlərin və siyasi elmin ümumən qəbul edilmiş metodları təşkil edir. İşin gedişində siyasi elmlərdə tətbiq olunan ümumməntiqi metodlardan - analiz və sintez, ümumiləşdirmə, eyni zamanda müqayisəli və sistemli təhlil metodlarına da üstünlük verilmişdir. Problemin əhatə etdiyi dövr bir çox sənədlərlə zəngin olduğundan işin yazılması prosesində müqayisəli siyasi təhlilə geniş yer verilmiş, bu metodların xronoloji və problem-xronoloji üsullarından daha çox istifadə olunmuşdur.

**Tədqiqatın elmi yeniliyi.** Tədqiq olunan mövzu aktual olduğuna və siyasi əhəmiyyət kəsb etdiyinə görə o, ilk dəfə olaraq kompleks şəkildə sistemli araşdırılır və dissertasiyanın elmi yeniliyi aşağıdakılardan ibarətdir:

- XX əsrin 80-ci illərinin sonunda Ermənistanın Dağlıq Qarabağın sosial-iqtisadi "geriliyi" adı altında irəli sürdüyü əsassız ərazi iddiaları faktlarla təkzib edilir;

- Dağlıq Qarabağın Azərbaycan SSR-in tərkibində muxtar vilayət statusu və öz müqəddəratını təyinetmə prinsipinin əsassızlığı hüquqi sənədlərə əsasən araşdırılır;

- Beynəlxalq təşkilatlar tərəfindən qəbul edilən sənədlər, eləcə də münaqişənin nizama salınması üçün yaradılmış ATƏT-in Minsk qrupunun fəaliyyəti ayrıca təhlil edilir, ikili standartlar siyasətinin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə təsiri öyrənilir;

- Ermənistanın Azərbaycana qarşı təcavüzkar siyasəti və münaqişənin beynəlxalq-hüquqi aspektləri tədqiq edilir, o cümlədən Beynəlxalq Ədalət Məhkəmisinin oxşar presidentli qərarları və beynəlxalq hüququn bu sahədə tətbiq olunan adət normaları araşdırılır.

- problemin həlli üçün zəruri və həyata keçirilməsi mümkün olan cəhətlərlə yanaşı, ziddiyyətli cəhətlərə, maneələrə, həmçinin buraxılan nöqsanlara da xüsusi diqqət yetirilir, konkret elmi-nəzəri nəticələr çıxarılır, tövsiyələr verilir;

- dissertasiyanın yazılması prosesində istifadə olunan bir sıra cari arxiv sənədləri və xarici ölkələrdə nəşr edilən ədəbiyyatlar ilk dəfə olaraq elmi dövriyyəyə cəlb olunmuşdur.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti**. Dissertasiya işinin materiallarından aşağıdakı məqsədlər üçün istifadə etmək mümkündür:

- Azərbaycanda beynəlxalq münasibətlər və xarici siyasət problemlərinə dair dərsliklərin, dərs vəsaitlərinin və monoqrafiyaların, həmçinin, konfliktologiya fənlərinə dair ümumiləşdirilmiş elmi əsərlərin yazılmasında;

- dissertasiyada söylənilən elmi mülahizə və fikirlər, aparılan araşdırmaların nəticələri bu mövzu ilə əlaqədar gələcəkdə daha yeni tədqiqat işlərinin istiqamətlərinin müəyyənləşdirilməsində, eləcə də praktik xarici siyasət problemləri ilə məşğul olan idarələrdə və bu sahədə çalışan mütəxəssislər üçün faydalı ola bilər.

**Tədqiqatın aprobasiyası.** Dissertasiya işi Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "Beynəlxalq münasibətlər və xarici siyasət" və "Tarix" kafedralarının birgə iclasında müzakirə edilmiş və müdafiəyə məsləhət görülmüşdür.

Dissertasiya işinin məzmunu və elmi nəticələri müəllifin Azərbaycanda və xaricdə çap olunmuş elmi məqalələrində, eləcə də konfrans materiallarında öz əksini tapmışdır.

**Dissertasiyanın strukturu.** Dissertasiya giriş, iki fəsil, nəticə, istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın **giriş hissəsində** mövzunun aktuallığı əsaslandırılmış, problemin öyrənilmə səviyyəsi və mənbə bazası təhlil edilmiş, tədqiqatın məqsəd və vəzifələri müəyyənləşdirilmiş, işin elmi yeniliyi və praktik əhəmiyyəti göstərilmişdir.

Tədqiqatın **birinci fəsli – "Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları, etnik təmizləmə, soyqırımı və təcavüzkarlıq siyasəti"** adlanır. Bu fəslin **"Ermənistanın Azərbaycana qarşı təcavüzünün tarixi kökləri"** adlanan **birinci yarımfəslində** göstərilir ki, XVIII əsrin əvvəllərindən çar Rusiyası onunla əlaqə saxlayan ermənilərdən özünün gələcək işğalçılıq planlarının həyata keçirilməsi üçün bir vasitə kimi istifadə edirdi. Ermənilər isə öz növbəsində çar Rusiya imperiyasının onlara arxa duracaqlarına ümid bəsləyərək çarizmin Qafqazı işğal etməsinə köməklik göstərmək, öz məkrli siyasətlərini həyata keçirmək niyyətində idilər. Bu baxımdan, Qarabağın dağlıq hissəsinə erməni əhalisinin kütləvi köçürülməsi XIX əsrin 20-ci illərində, xüsusilə Cənubi Qafqazın Rusiya tərəfindən işğal edilməsindən sonra baş vermişdir. Köçürülmə prosesininin iştirakçısı, rus müəllif N.N.Şavrov Rusiyanın Qafqazı işğal etməsini açıq söyləyir və bu məqsədlə həmin əraziyə ilk dəfə başqa millətlərin köçürülməsini yazırdı: "Biz müstəmləkəçilik fəaliyyətimizə Qafqaza rus əhalisinin deyil, xaricilərin köçürülməsindən başladıq. Vətəndə arzuedilməz ünsürlər sayılan bu kolonistlərdən Tiflis və Yelizavetpol quberniyalarında koloniyalar yaratdıq. Onlara ən yaxşı torpaqlar ayrıldı və

müxtəlif imtiyazlar verildi”[29].

Qeyd etmək lazımdır ki, çar Rusiyasının müstəmləkəçilik siyasətinin tərkib hissəsi olan köçürülmə prosesi bütün XIX əsr boyunca davam etdirilmiş və nəticədə regionda demoqrafik vəziyyətə təsir göstərmişdir. Ermənilərin bu bölgədə süni surətdə çoxaldılması onların XX əsrin əvvəllərindən başlayaraq Azərbaycana qarşı ərazi iddiaları və təcavüzkarlıq siyasətinin baş qaldırmasına səbəb olmuşdur[30]. XX əsrin əvvəllərində erməni millətçiləri “Daşnaksütun” partiyasının proqramında irəli sürülən “Böyük Ermənistan” ideyasını reallaşdırmaq istiqamətində fəaliyyətini genişləndirərək öz tarixi torpaqlarında yaşayan azərbaycanlıları planlı surətdə doğma yurdlarından qovmaqla etnik təmizləmə və soyqırımı siyasətini həyata keçirməyə başladılar. Belə ki, 1905-1906-cı və 1918-1920-ci illərdə ermənilər Bakıda, Gəncədə, Qarabağda, İrəvanda, Naxçıvanda, Ordubadda, Şərur-Dərələyəzdə, Tiflisdə, Zəngəzurda, Qazaxda və başqa yerlərdə dinc azərbaycanlılara qarşı qırğınlar törətmiş, əhali amansızlıqla qətlə yetirilmiş, şəhər və kəndlər yandırılmış və dağıdılmışdır[31].

Cənubi Qafqazın sovetləşməsindən öz məqsədləri üçün istifadə edən ermənilər, 1920-ci ildə Zəngəzurun bir hissəsi və Azərbaycanın bir sıra torpaqlarını Ermənistan SSR-yə daxil etməyə nail oldular. Bununla da, Naxçıvanın Azərbaycandan ayrı salınması və quru əlaqələrin kəsilməsi baş vermişdir. Sonrakı dövrlərdə isə ermənilər Ermənistana verilmiş Zəngəzurda və digər ərazilərdə də tarixən yaşamış azərbaycanlıların deportasiya edilməsi siyasətini daha da genişləndirdilər.

Beləliklə, məqsədyönlü şəkildə həyata keçirilən siyasətin davamı olaraq Azərbaycanın Qarabağ bölgəsinin dağlıq hissəsinə XIX əsrdə köçürülən ermənilərə 1923-cü il iyulun 7-də muxtar vilayət statusu verildi ki, bu da sovet Rusiyasının bilavasitə himayəsi və iştirakı ilə həyata keçirildi. Azərbaycanın tərkibində tarixi, coğrafi-siyasi, etnik-mədəni gerçəkliyi əks etdirməyərək süni surətdə Muxtar Vilayətin yaradılmasının ağır nəticələri oldu[32]. Muxtar vilayətinin yaradılması ilə Dağlıq Qarabağı Ermənistana birləşdirmək istəyənlər öz istəklərinə çata bilməsələr də, bütövlükdə, ermənilərin niyyətləri yerinə yetirildi. Ancaq, sovet dövründə

---

[29] Шавров Н.Н.Новая угроза русскому делу в Закавказье: Предстоящая распродажа в Мугани инорадцам. Баку: “Элм“, 1990, с.63.

[30] Qasımlı M.C. “Erməni məsələsi”ndən ”erməni soyqırımı”na: gerçək tarix axtarışında (1724-1920). Bakı: 2014, s.51.

[31] Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası: İki cilddə. Bakı: 2004, Cild I, s.176.

[32] Qasımlı M.C. Ermənistanın sovetləşməsindən Azərbaycan ərazilərinin işğalınadək erməni iddiaları: tarix - olduğu kimi (1920-1994-cü illər). Bakı: 2016, s.199.

Azərbaycanın Qarabağ bölgəsinin dağlıq hissəsində yaşayan erməni icması bütün siyasi, iqtisadi, sosial və mədəni məsələləri əhatə edən muxtariyyətə malik olsa da, Ermənistan öz ərazi iddialarını bir neçə dəfə ortaya atmış, ancaq istəyinə nail ola bilməmişdir. Nəhayət, XX əsrin 80-ci illərinin ikinci yarısında ermənilər özlərinin himayədarlarının köməkliyi ilə SSRİ-də yaranmış aşkarlıq və demokratiya şəraitindən istifadə edərək yenidən Azərbaycanın Dağlıq Qarabağ bölgəsinə dair ərazi iddiaları irəli sürdülər.

**“Ermənistanın Dağlıq Qarabağa dair ərazi iddialarının sosial-iqtisadi, siyasi və hüquqi aspektləri” adlanan dissertasiyanın birinci fəslinin ikinci yarımfəslində** qeyd edilir ki, 1988-ci il hadisələri başlayanda ictimai rəyi öz tərəflərinə çəkməyə çalışan erməni siyasətçiləri və onların mərkəzi ittifaqdakı himayədarları ilk vaxtlarda əsas diqqəti ona yönəltdilər ki, guya Dağlıq Qarabağın iqtisadi inkişaf səviyyəsi bütün respublikada olduğundan xeyli aşağıdır[33].

Bu iddianı əldə rəhbər tutaraq, 1988-ci il martın 24-də Sov. İKP MK və SSRİ Nazirlər Soveti “1988-1995-ci illərdə Azərbaycan SSR Dağlıq Qarabağ Muxtar Vilayətinin sosial-iqtisadi inkişafının sürətləndirilməsi tədbirləri haqqında” qərar qəbul etdi. Qərarda göstərilirdi ki, vilayətdə sosial-iqtisadi vəziyyətin daha da yaxşılaşdırılması məqsədi ilə 500 milyon manat vəsait ayrılmışdır[34]. Lakin qəbul edilən qərar regionda sosial-iqtisadi inkişafın respublika vəziyyətindən doğmur, onun qəbul edilməsinə xüsusi ehtiyac duyulmurdu. Martın 25-də SSRİ Nazirlər Sovetinin sosial inkişaf məsələləri üzrə sədrinin birinci müavini V.P.Laxtin “İzvestiya” qəzetində bildirmişdi ki, DQMV mənzillə təminat sahəsində Azərbaycanın digər bölgələrini orta hesabla 1,4 dəfə geridə qoyur[35]. Bir sıra başqa göstəricilər üzrə də vilayətdəki vəziyyət hər iki müttəfiq respublikadakından yaxşıdır. Azərbaycana qarşı açıq-aşkar ərazi iddialarını pərdələyərək münaqişənin əsas səbəbinin guya DQMV-nin sosial-iqtisadi problemlərinin olması barədə çıxış edən erməni siyasətçiləri və onların arxasında dayananların bu tezisinin əsassızlığı konkret faktlar və rəqəmlərlə ifşa olunmuşdur.

Eyni zamanda, sovet dövründə özünüidarəetmənin bütün əsas elementlərinə malik olan Dağlıq Qarabağın Azərbaycan SSR-in tərkibində muxtar vilayət statusu 1936 və 1977-ci illər SSRİ Konstitusiyalarında təsbit

---

[33] Əhmədov E.İ. Ermənistanın Azərbaycana təcavüzü: təhlili xronika (1987-2011). Bakı: “Letterpress”, 2012, s.47.

[34] Dağlıq Qarabağ: Zəka qalib gələcək /sənədlər və materiallar/. Bakı: “Azərnəşr”, 1989, s.44.

[35] Газ., “Известия”, Москва, 25 марта 1988 г.; Dağlıq Qarabağ: Zəka qalib gələcək /sənədlər və materiallar/. Bakı: “Azərnəşr”, 1989, s.28-29.

edilmişdi. SSRİ və Azərbaycan SSR Konstitusiyalarına əsasən DQMV-nin hüquqi statusu 1981-ci il iyunun 16-da qəbul edilmiş "Dağlıq Qarabağ Muxtar Vilayəti haqqında" qanunla tənzimlənirdi[36]. Bununla yanaşı, SSRİ Konstitusiyasının 81-ci maddəsinə görə, SSRİ yaradılarkən dövlətin tərkibinə daxil olan müttəfiq respublikaların suveren hüquqlarını müdafiə etmək təhəddüdünü SSRİ öz üzərinə götürmüşdü[37].

Beləliklə, yuxarıda deyilənlərə əsasən, belə bir nəticəyə gəlmək olar ki, DQMV Xalq Deputatları Sovetinin vilayətin Azərbaycan SSR tərkibindən çıxması və Ermənistan SSR tərkibinə daxil edilməsi haqqındakı qərarı hüquqa zidd və Konstitusiya əleyhinə bir qərar idi və bu Azərbaycan SSR-in dövlət suverenliyinin pozulması demək idi.

**Dissertasiyanın birinci fəslinin "XX əsrin sonunda Ermənistanın Azərbaycana qarşı təcavüzkarlıq siyasəti: etnik təmizləmə və işğalın həyata keçirilməsi" adlanan üçüncü yarımfəslində** ilk növbədə qeyd edilir ki, 1988-ci il sentyabrın 18-də ermənilər tərəfindən Xankəndi şəhərində azərbaycanlıların mənzillərinə basqınlar edildi, yüzlərlə ailənin evi yandırıldı və dağıdıldı. Nəticədə, şəhəri tərk etməyə məcbur edilmiş 15 mindən çox azərbaycanlı əhalinin xeyli hissəsi Şuşa, Xocalı və Ağdam şəhərlərində məskunlaşmağa məcbur oldu[38]. Mərkəzi ittifaq orqanlarının hadisələrə birtərəfli yanaşması nəticəsində Dağlıq Qarabağ və Ermənistanda yaşayan azərbaycanlılar hərbi təcavüzə məruz qalmaqla yanaşı kütləvi şəkildə öz doğma yurdlarından çıxarıldılar.

Belə ki, 1988-ci ilin sonunda ermənilər Ermənistanda genişmiqyaslı etnik təmizləmə – azərbaycanlılardan təmizləmək aksiyasını həyata keçirdilər[39]. Belə ki, 1988-ci il noyabrın 22-dən dekabrın 7-dək olan müddət ərzində azərbaycanlılar yaşayan 22 rayonda 170 sırf və 94 qarışıq (ermənilərlə) yaşayış məskənləri boşaldılmış, nəticədə 200 mindən artıq azərbaycanlı əhali Azərbaycana qovulmuşdur. Həmin vaxt 216 azərbaycanlı, o cümlədən 57 qadın, körpə və 18 uşaq qətlə yetirilmişdir.

Eyni zamanda, sovet rəhbərliyinin çox ciddi və bağışlanılmaz səhvləri və ermənipərəst siyasəti 1990-cı ilin sonu-1991-ci ilin əvvəllərində vəziyyətin getdikcə kəskinləşməsinə gətirib çıxartdı, DQMV və Azərbaycanın Ermənistanla həmsərhəd bölgələrində erməni təcavüzü daha

---

[36] Əliyev İ. Dağlıq Qarabağ: Tarix, faktlar, hadisələr. Bakı: "Elm", 1989, s.111.
[37] Əhmədov E.İ. Ermənistanın Azərbaycana təcavüzü: təhlili xronika (1987-2011). Bakı: "Letterpress", 2012, s.50.
[38] Шарифов А. Прорыв информационной блокады. Баку: "Язычы", 1992, с.183.
[39] Arzumanlı V., Mustafa N. Tarixin qara səhifələri. Deportasiya. Soyqırım. Qaçqınlıq. Bakı, 1998, s.68.

geniş miqyas aldı. Minlərlə azərbaycanlı SSRİ-nin hakim dairələri tərəfindən himayə edilən ermənilərin işğalçılıq siyasətinin qurbanı oldu[40].

1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan silahlı qüvvələri Xankəndində yerləşən keçmiş SSRİ-nin 4-cü ordusunun 23-cü diviziyasına daxil olan 366-cı motoatıcı alayın 10 tankı, 16 zirehli transpartyoru, 9 piyadaların döyüş maşını, 180 nəfər hərbi mütəxəssisi və xeyli canlı qüvvəsi ilə Xocalıya hücum edərək şəhəri yerlə-yeksan etdilər[41]. Çoxsaylı ağır texnika ilə şəhər tamamilə dağıdılmış, yandırılmış və insanlar xüsusi qəddarlıqla qətlə yetirilmişdir[42]. Bu soyqırımı nəticəsində, rəsmi rəqəmlərə görə, 613 nəfər öldürülmüşdür ki, onlardan 63 nəfəri uşaq, 106 nəfəri qadın, 70 nəfəri isə qocalar idi[43].

Eyni zamanda, 1988-1994-cü illərdə dövlət terrorizmi və soyqırımı siyasəti yeridən Ermənistan və işğal olunmuş ərazilərdəki separatçı rejim tərəfindən ümumilikdə, müxtəlif səpkili 373 terror aktı törədilmişdir ki, nəticədə 1200 nəfər həlak olmuş, 1705 nəfər yaralanmışdır[44]. Ümumiyyətlə, 1988-1993-cü illərdə Ermənistanın hərbi təcavüzü nəticəsində 20 000 nəfərdən çox azərbaycanlı həlak olmuş, 100 000 nəfərdən çoxu yaralanmış, 50 000 nəfər isə müxtəlif dərəcəli xəsarət alaraq əlil olmuşdur[45].

**“Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq problemə çevrilməsi”** adlanan dissertasiyanın **ikinci fəslinin birinci yarımfəslində** Ermənistanın Azərbaycana qarşı təcavüzkar siyasəti və münaqişənin beynəlxalq-hüquqi aspektləri geniş tədqiq edilmişdir.

---

[40] Həsənov Ə.M. Azərbaycanlılara qarşı etnik təmizləmə və soyqırımı siyasətinin mərhələləri. (Azərbaycan, türk, rus, ingilis, fransız, alman, ərəb və Çin dillərində). Bakı: “Zərdabi LTD”, 2017, s.22.

[41] Преступления армянских террористических и бандитских формирований против человечества (XIX-XXI). Баку: 2002, с.284-286.

[42] Трагедия виновников который невозможно оправдать /Доклад Московского правозащитного центра Мемориал о массовых нарушениях прав человека, связанных с занятием населенного пункта Ходжалы в ночь с 25 на 26 февраля 1992 г. вооруженными формированиями. Баку: 1992, с.8.

[43] Əhmədov E.İ. Ermənistanın Azərbaycana təcavüzü: Etnik təmizləmə, soyqırım, terror, işğal. II kitab. Bakı: “Letterpress”, 2013, s.67-68.

[44] Преступления армянских террористических и бандитских формирований против человечества (XIX-XXI). Баку: 2002, с.158-159.

[45] Əhmədov E.İ. Ermənistanın Azərbaycana təcavüzü: təhlili xronika (1987-2011). Bakı: “Letterpress”nəsriyyat evi, 2012, s.146-147.

Bu baxımdan, qeyd etmək vacibdir ki, Ermənistanın Azərbaycana qarşı açıq-aşkar təcavüzü bütün beynəlxalq hüquq norma və prinsiplərinə ziddir. Belə ki, dünyada sülhün və təhlükəsizliyin təminatçısı olan BMT Nizamnaməsinin 1-ci maddəsinin 1-ci bəndində təşkilatın əsas vəzifəsi kimi "beynəlxalq sülhü qorumaq və bu məqsədlə təcavüz hərəkətlərinə və ya sülhün pozulmasına yönəlmiş digər pozuntulara qarşı təsirli kollektiv tədbirlər həyata keçirmək" nəzərdə tutulur. Nizamnamə nəinki təcavüzü, həm də dövlətlərarası münasibətlərdə qüvvə və ya hədə tətbiq etməni də qadağan edir (2-ci maddənin 2-ci bəndi), dövlətlər arasında baş verə biləcək hər cür mübahisələri ancaq dinc vasitələrlə həll etməyi tələb edir (2-ci maddənin 3-cü bəndi)[46].

Bununla yanaşı, 1974-cü il dekabrın 14-də BMT Baş Məclisinin XXIX sessiyasının 3314 (XXIX) saylı qətnaməsinin 5-ci maddəsində göstərilir ki, heç bir siyasi, iqtisadi, hərbi və ya başqa mülahizələr təcavüzə haqq qazandıra bilməz; təcavüz beynəlxalq sülhə, əmin-amanlığa qarşı cinayətdir və bu cinayəti törədənlər beynəlxalq məsuliyyət daşımalıdırlar; təcavüz nəticəsində ərazi əldə edilməsi və yaxud hər hansı mənfəət qazanılması qeyri-qanunidir[47]. Bu səbəbdən, Ermənistan Respublikası tərəfindən qətnamədəki hər hansı bir bəndin, ümumiyyətlə əksər maddələrin pozulması belə bir nəticəyə gəlməyə imkan verir ki, bunlar əsl təcavüz hərəkətləridir. Ermənistanın bu təcavüzkarlığı BMT Nizamnaməsində nəzərdə tutulan öz müqəddaratını təyin etmək hüququnun həyata keçirilməsi deyil, Nizamnamənin 2-ci maddəsinin 4-cü bəndinin kobud şəkildə pozulması – başqa dövlətin ərazi bütövlüyünə və siyasi müstəqilliyinə qarşı zor işlədilməsi deməkdir.

Ümumiyyətlə, Ermənistan Respublikası bütün beynəlxalq hüquqi sənədləri, xüsusilə BMT Nizamnaməsinin I və II maddələrində, 1970-ci il 24 oktyabr tarixli beynəlxalq hüququn prinsipləri haqqında bəyannamədə, eləcə də 1975-ci il 1 avqust tarixli ATƏM/ATƏT-in Helsinki Yekun Aktında ifadə olunmuş beynəlxalq hüququn əsas prinsiplərini kobudcasına pozmuşdur[48]. Bununla yanaşı, beynəlxalq hüquq normalarının bu cür ermənisayaq təfsiri dövlətlərin ərazi bütövlüyü və sərhədlərin pozulmasının

---

[46] Charter of the United Nations and Statute of the International Court of Justice. United Nations. New York, 1999, p.19-20.

[47] The Work of the International Law Commission. United Nations. New York, 1996, p.38.

[48] Charter of the United Nations and Statute of the International Court of Justice. United Nations. New York, 1999, p.19-20.; СБСЕ. Заключительный Акт Совещания по безопасности и сотрудничеству в Европе. 30 июля - 1 августа 1975 г. Москва, Международные отношения, 1987, 96 с.

qeyri-mümkünlüyü haqqında 1990-cı il noyabrın 21-də qəbul edilmiş yeni Avropa üçün Paris Xartiyasına da tamamilə ziddir və qəbuledilməzdir[49].

Bununla yanaşı, Ermənistan Azərbaycan Respublikasının qanunları ilə barəbər, beynəlxalq humanitar hüququ, YUNESKO-nun "Silahlı münaqişələr zamanı mədəni mülkiyyətin mühafizəsi" haqqında 1954-cü il Konvensiyası (Convention for the Protection of Cultural Property in the Event of Armed Conflict with Regulations for the Execution of the Convention 1954) və "Mədəni mülkiyyətin qanunsuz idxalı, ixracı və onun üzərində sahiblik hüququnun ötürülməsinin qadağan edilməsi vasitələri" haqqında 1970-ci il Konvesiyanın (Convention on the Means of Prohibiting and Preventing the Illicit Import, Export and Transfer of Ownership of Cultural Property 1970) müddəalarını da kobud şəkildə pozmuşlar.

Dissertasiyanın **ikinci fəslinin "ATƏT-in Minsk qrupu: ikili standartlar siyasətinin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə təsiri"** adlanan **ikinci yarımfəslində**, münaqişənin nizama salınmasına dair ATƏT-in Minsk qrupunun yaradılması və fəaliyyəti tədqiq edilir. Son illərdə dünya nizamının tarazlığının pozulması, transmilli münaqişələrin getdikcə dərinləşməsi, dövlətlərin milli təhlükəsizliyinin təhdid altında qalması, bir tərəfdən beynəlxalq münasibətlər sistemində cərəyan edən ikili standartların mövcudluğu, digər tərəfdənsə dünyada sülhün və təhlükəsizliyin əsas qarantı hesab olunan BMT və ATƏT kimi hökumətlərarası təşkilatların ayrı-ayrı dövlətlərin beynəlxalq hüquqa zidd fəaliyyətinə göz yumması reallığı ilə bağlıdır. Məhz elə bu reallığın nəticəsidir ki, iyirmi ildən artıq bir dövrdə işğalçı Ermənistanın hərbi təcavüzünə məruz qalmış Azərbaycan kimi dövlətlərin və xalqların bu təşkilatlara olan ümidləri getdikcə azalmaqdadır.

1988-ci ildən davam edən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin indiyə qədər öz həllini tapa bilməməsinin əsas səbəblərindən biri məhz bu problemin BMT və ATƏT kimi təşkilatların apardığı ikili standartlar siyasətinin girovuna çevrilməsidir. Xüsusilə, münaqişənin bilavasitə həlli məqsədilə yaradılmış ATƏT-in Minsk qrupunun problemin aradan qaldırılması üçün uzun illərdir hər hansı bir irəliləyişə nail ola bilməməsi, əvəzində hərbi təcavüzkar olan Ermənistanla işğala məruz qalmış Azərbaycana eyni mövqedən yanaşması bu təşkilatın beynəlxalq hüququn tələblərini, haqqı və ədaləti nə vaxtsa bərpa edəcəyinə olan ümidləri heçə endirir.

---

[49] Парижская хартия для новой Европы. Париж, 19-21 ноября 1990 года.

Beynəlxalq hüququn əsas qarantı rolunu oynayan BMT-nin mövqeyinə gəlincə, qeyd etmək lazımdır ki, bu qurumun Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələrində Ermənistan silahlı qüvvələrinin zəbt etdikləri Azərbaycan ərazilərindən dərhal çıxması tələbinin irəli sürülməsinə baxmayaraq, Ermənistan bu günə qədər buna məhəl qoymamaqda davam edir. Bu günə qədər nə BMT, nə ATƏT, nə də ki, Minsk qrupunun həmsədrləri təcavüzkar Ermənistan dövlətinə ciddi təzyiq göstərərək BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsinə əməl edilməsini tələb etməmişlər. Eyni zamanda, təcavüzkar Ermənistana qarşı heç bir əməli tədbirin görülməməsi ATƏT-in nüfuzuna xələl gətirməklə bərabər, onun tərkibində yaradılan Minsk qrupuna olan ümidləri də heçə endirir.

**"Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı Azərbaycanın dövlət siyasəti"** adlanan **ikinci fəslin üçüncü yarımfəslində** münaqişənin nizama salınması istiqamətində Azərbaycanın diplomatik fəaliyyəti təhlil edilir. Münaqişənin nizama salınması prosesində Azərbaycan dövlətinin mövqeyi əvvəlki kimi birmənalıdır. Yəni, ermənilər Dağlıq Qarabağ ətrafında işğal etdikləri əraziləri mərhələli şəkildə azad etməli, məcburi köçkünlər öz doğma yurdlarına qayıtmalıdırlar. Bununla yanaşı, növbəti mərhələdə isə, Dağlıq Qarabağın 65 mindən çox azərbaycanlı əhalisi tarixən yaşadıqları doğma yurdlarına qayıtdıqdan sonra status məsələsi ilə bağlı məsələlər aydınlaşmalıdır[50]. Heç şübhəsiz ki, bütün bunlar Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllini tapmalıdır. Bu səbəbdən Azərbaycan Prezidenti İlham Əliyev dəfələrlə bəyan etmişdir ki, Azərbaycan torpağında ikinci erməni dövlətinin yaradılmasına Azərbaycan dövləti və xalqı heç vaxt imkan verməyəcək. Dağlıq Qarabağa yalnız Azərbaycanın tərkibində hər hansı bir status verilə bilər. Lakin bu Azərbaycanın ərazi bütövlüyü çərçivəsində mümkündür.

Bundan əlavə, Ermənistan tərəfi aparılan danışıqlarda Dağlıq Qarabağın üçüncü tərəf kimi iştirakının təmin olunmasını istəyir. Ancaq bu tələb də əsassızdır və heç bir məntiqə uyğun deyil. Çünki Dağlıq Qarabağ ermənilərinin müstəqil tərəf kimi danışıqlarda iştirakı məsələsi nəinki ATƏT-in Minsk qrupunun mandatına ziddir, eyni zamanda 2008-ci ilin sonunda Moskvada imzalanmış məlum bəyannamədə də açıq şəkildə

---

[50] Əhmədov E.İ. Ermənistanın Azərbaycana təcavüzü: Beynəlxalq təşkilatların və böyük dövlətlərin siyasəti. III kitab. Bakı: 2013, 368 s.116-117.

bildirilir ki, münaqişənin nizamlanması istiqamətində aparılan danışıqlar prosesində yalnız Azərbaycan və Ermənistan tərəfləri iştirak edə bilər[51].

Sonda qeyd etmək lazımdır ki, münaqişənin nizama salınması prosesində Azərbaycan dövləti ilk növbədə sülh variantına üstünlük verir. Ermənistan işğal olunmuş Azərbaycan torpaqlarından çıxmayınca bölgədə heç bir müsbət irəliləyişin mümkün olmayacağını vurğulamaqla yanaşı, dövlət başçısı İlham Əliyev ölkəmizin öz milli maraqları uğrunda sona qədər mübarizə aparacağını bildirmişdir: "Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli bizim üçün həmişə olduğu kimi birinci yerdə duran prioritet məsələdir. Dağlıq Qarabağ bütün dünya tərəfindən Azərbaycanın ayrılmaz tərkib hissəsi kimi tanınır. Dağlıq Qarabağda və işğal edilmiş bütün torpaqlarda baş verən və baş verə biləcək hadisələr bizim daxili işimizdir. Heç bir beynəlxalq təşkilat, yaxud da ki, hansısa bir ölkə bizim daxili işimizə qarışa bilməz. Biz öz torpağımızda ikinci qondarma erməni dövlətinin yaradılmasına heç vaxt icazə verməyəcəyik. Azərbaycan xalqı və dövləti heç vaxt işğalla barışmayacaq, öz ərazi bütövlüyünü nəyin bahasına olursa-olsun bərpa edəcəkdir"[52]. Bu baxımdan, Azərbaycan dövlətinin öz torpaqlarını azad etmək üçün tam əsası vardır və bu Azərbaycan Konstitusiyası, eləcə də beynəlxalq hüquq normaları ilə təsdiq edilmişdir.

**Nəticədə**, tədqiq olunan problemlə əlaqədar ümumiləşdirmələr aparılmış nəzəri-praktik əhəmiyyət daşıyan təklif və tövsiyələr irəli sürülmüşdür. Göstərilir ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin indiyə qədər öz həllini tapa bilməməsinin əsas səbəblərindən biri məhz beynəlxalq münasibətlər sistemində cərəyan edən ikili standartların mövcudluğu, digər tərəfdənsə dünyada sülhün və təhlükəsizliyin əsas qarantı hesab olunan BMT və ATƏT kimi beynəlxalq təşkilatların, eləcə də ayrı-ayrı dövlətlərin Ermənistanın beynəlxalq hüquqa zidd fəaliyyətinə göz yumması reallığı ilə bağlıdır. Məhz elə bu reallığın nəticəsidir ki, beynəlxalq birliyin mühüm və çox etibarlı tərəfdaşı kimi Azərbaycan özünə münasibətdə eyni mövqe nümayiş etdirilməsini və ikili standartlardan əl çəkilməsini tələb edir. Regiondakı vəziyyətin obyektiv qiymətləndirilməsi və dünya birliyinin öz məsuliyyətini dərk etməsi münaqişənin həllinə yalnız müsbət təsir göstərə bilər.

---

[51] Əhmədov E.İ. Ermənistanın Azərbaycana təcavüzü: təhlili xronika (1987-2011). Bakı, "Letterpress", 2012, s.254-256.

[52] Azərbaycan Prezidenti İlham Əliyevin Azərbaycan Ordusunun aprel qələbələrinin ildönümü ilə əlaqədar bir qrup hərbçilərlə görüşdə nitqi. – "Azərbaycan" qəz., 1 aprel 2017-ci il; http://president.az/articles/23254.

**Dissertasiyanın məzmunu müəllifin nəşr edilmiş aşağıdakı işlərində öz əksini tapmışdır:**


**1.** Münaqişələrin nizama salınması mexanizmlərinin nəzəri aspektləri // "Heydər Əliyev Azərbaycanın milli dövlətçilik siyasətinin banisidir" mövzusunda doktorant və dissertantların Elmi konfransının materialları. Bakı, 2014, s. 284-291.

**2.** Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli problemi haqqında bəzi mülahizələr // "Geostrategiya" ictimai-siyasi, elmi jurnal. 2014, №03 (21), may-iyun, s.48-51.

**3.** Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi və beynəlxalq hüquq normaları // "Dövlət İdarəçiliyi: Nəzəriyyə və təcrübə" Elmi-nəzəri və praktiki jurnal. 2014, №4 (48), s.241-248.

**4.** Политика экологического, культурного и экономического террора Армении против Азербайджана" // "Science and world" International scientific journal, Russia, Volgograd, 2015, №8 (24), Vol I, стр.141-145.

**5.** Ermənistanın ekoloji və mədəni terror siyasəti //"Dövlət İdarəçiliyi: Nəzəriyyə və təcrübə" Elmi-nəzəri və praktiki jurnal. 2015, №1(49) s.213-218.

**6.** Социально-экономические, политические и правовые аспекты территориальных притязаний Армении на Нагорный Карабах //"Geostrategiya" ictimai-siyasi, elmi jurnal. 2017, №03 (39), may-iyun, s. 14-19.

**7.** Ermənistanın Azərbaycana təcavüzü: Dağlıq Qarabağa dair ərazi iddialarının sosial-iqtisadi, siyasi və hüquqi aspektləri // Dövlət İdarəçiliyi: Nəzəriyyə və təcrübə" Elmi-nəzəri və praktiki jurnal. 2017, №2 (58), s.259-268.

**8.** Aggression of Armenia against Azerbaijan: socioeconomic, political and legal aspects of territorial claims to Nagorno-Karabakh // Science and world: International scientific journal.- Russia, Volgograd, 2017, №7 (47), Vol I, pp.66-71.

**9.** Агрессия Армении против Азербайджана: социально-экономические, политические и правовые аспекты территориальных притязаний армении на Нагорный Карабах. // Этно-территориальные конфликты в глобальной геополитике. (Сборник материалов к Международной научно-практической конференции, Кишинэу, Молдова, 2017) Кишинэу: Метранпаш, 2017, стр. 90-99.

**10.** Ermənistanın Dağlıq Qarabağa dair ərazi iddiaları beynəlxalq-hüquq kontekstində // "Geostrategiya" ictimai-siyasi, elmi jurnal. 2017, №06 (42), noyabr-dekabr, s.10-15.

**Сафия Али кызы Мехбалиева**

# Анализ процесса урегулирования Армяно-Азербайджанского, Нагорно-Карабахского конфликта: препятствия и проблемы

**Резюме**

Диссертационная работа состоит из введения, двух глав, заключения и списка использованной литературы.

Во Введении с научной точки зрения обоснована актуальность темы, определены цель и задачи, объект и предмет исследования, раскрыты научная новизна, теоретико-методологические основы, теоретическое и практическое значение работы.

В первой главе – “Территориальные притязания Армении против Азербайджана, ее политика этнической чистки, геноцида и агрессии” рассмотрены исторические корни армяно-азербайджанского, нагорно-карабахского конфликта, изучены причины и этапы целенаправленного переселения армян на исторические азербайджанские земли. Исследуются социально-экономические, политические и правовые аспекты территориальных притязаний Армении на Нагорный Карабах в конце 80-х годов XX века, изучаются продолжающаяся по сей день агрессивная политика армянского государства против Азербайджана, а также политико-правовые аспекты осуществленной им этнической чистки и оккупации.

Во второй главе – “Превращение армяно-азербайджанского, нагорно-карабахского конфликта в международную проблему” захватническая политика Армении против Азербайджана исследуется в контексте нарушения норм международного права, изучается политика и позиции ведущих государств и международных организаций в отношении армяно-азербайджанского, нагорно-карабахского конфликта, анализируются документы, принятые международными организациями по его урегулированию. В работе также анализируется деятельность Минской группы ОБСЕ по разрешению данного конфликта и негативное влияние политики двойных стандартов на этот процесс.

В Заключении формулируются обобщающие выводы, наряду с возможностями разрешения армяно-азербайджанского, нагорно-карабахского конфликта, особое внимание уделяется преодолению при этом препятствий и проблем, а также допущенных просчетов, выдвигаются практические рекомендации по урегулированию конфликта на современном этапе. Автор приходит к выводу, что только объективная оценка положения в регионе и осознание мировым сообществом недопустимости двойных стандартов окажет положительное воздействие на разрешение данного конфликта в рамках территориальной целостности Азербайджана и в соответствии с нормами международного права.

**Safiya Ali Mehbaliyeva**

**Analysis of Armenia-Azerbaijan, Nagorno-Karabakh conflict settlement process: obstacles and problems**

**Summary**

The thesis consists of introduction, two chapters, conclusion and the recommended reference list.

In the introduction the actuality of the subject is substantiated scientifically, goals and objectives, object and subject of the research determined, the novelty of the work, its theoretical, and methodological bases and practical importance are shown.

Chapter 1 entitled "Armenia`s territorial claims against Azerbaijan, ethnic cleansing and aggression policy" the historical roots of the conflict, causes and stages of purposeful resettlement of the Armenians in the Azerbaijani lands are investigated. At the same time, socio-economic, political and legal aspects of Armenia`s territorial claims to Nagorno Karabakh at the end of the 80-s in the XX century are investigated. In addition, at the end of the XX century aggression policy of Armenia against Azerbaijan, ethnic cleansing and political-legal aspects of the occupation are studied.

Chapter 2 entitled "Armenia-Azerbaijan, Nagorno-Karabakh conflict becoming international problem" of the dissertation Armenia's aggression against Azerbaijan is analysed in the context of violation of international law. The policy of great powers and international organizations to the Armenia-Azerbaijan, Nagorno-Karabakh conflict, adopted documents on the settlement of the conflict by the internationl organizations are analysed extensively in the dissertation. At the same time, the activity of the OSCE Minsk Group and the impact of double standards policy on the Armenia-Azerbaijan, Nagorno-Karabakh conflict are investigated in the thesis.

In conclusion, generalizations regarding to the problem are studied, the settlement of Armenia-Azerbaijan, Nagorno-Karabakh conflict, obstacles and problems as well as defects are analysed, concrete scientific and theoretical results reached, practical recommendations for the solution of the conflicts in the modern stage are put forward. The author comes to the conclusion that the objective assessment of the situation in the region, world community's fair approach to the conflict can only have a positive impact on the resolution of the conflict.

Форматы 64х80 1/16.
Сифариш № 04. Тираж 100
«Зярдаби ЛТД» ММЪ

**АКАДЕМИЯ ГОСУДАРСТВЕННОГО УПРАВЛЕНИЯ ПРИ ПРЕЗИДЕНТЕ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**

*На правах рукописи*

**САФИЯ АЛИ КЫЗЫ МЕХБАЛИЕВА**

# АНАЛИЗ ПРОЦЕССА УРЕГУЛИРОВАНИЯ АРМЯНО-АЗЕРБАЙДЖАНСКОГО, НАГОРНО-КАРАБАХСКОГО КОНФЛИКТА: ПРЕПЯТСТВИЯ И ПРОБЛЕМЫ

**Специальность: 5901.01 – Международные отношения**

Диссертация на соискание ученой степени
доктора философии по политическим наукам

**А В Т О Р Е Ф Е Р А Т**

**БАКУ – 2017**